# AZƏRBAYCANIN YAŞIL ENERJİ SİYASƏTİNDƏ GÜRCÜSTANIN DA DAXİL OLDUĞU LAYİHƏLƏRİN ROLU

**Şahnaz Rəhimova**

*AMEA-nın Qafqazşünaslıq İnstitutu, Bakı*
*sahnaz-30@mail.ru*

Azərbaycan Respublikası digər ölkələrlə müxtəlif istiqamətlərdə əməkdaşlıq edir. Aparılan uğurlu siyasət nəticəsində Azərbaycan beynəlxalq arenada öz sözünü deyən ölkələrdən birinə çevrilmişdir.

Azərbaycanın xarici siyasətinə yön verən sahələrdən başlıcası enerji ilə bağlıdır. Məlum olduğu kimi, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Ərzurum, Cənub Qaz Dəhlizi kimi qlobal enerji layihələri regionun, eləcə də Avropanın da enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Bu ənənəvi sahə

ilə yanaşı, yaşıl enerji də prioritet sahələrdən biri kimi müəyyən olunmuş, Azərbaycanın müvafiq siyasəti formalaşmışdır.

Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. Prezident İlham Əliyevin noyabrın 30-da BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 28-ci Tərəflər Konfransının (COP28) rəsmi açılışında iştirak məqsədilə Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) səfəri bununla bağlı olmuşdur.

İşğaldan azad olunmuş bölgələrdə yaşıl enerji siyasəti uğurla davam etdirilir, həmçinin ekosistem bərpa olunur. Həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir. Belə ki, Qarabağda və Şərqi Zəngəzurda 2021-2023-cü illər ərzində 170 meqavat gücündə hidroelektrik stansiyalar istifadəyə verilmişdir. 2024-cü ilin sonuna qədər bu rəqəmin 270 meqavata çatacağı gözlənilir. İşğaldan azad edilmiş ərazilərdə bir neçə ildən sonra hidroelektrik stansiyaların ümumi gücü 500 meqavat təşkil edəcəkdir.

Azərbaycan bu sahədə bir çox beynəlxalq təşkilatlar, hökumət və sənaye tərəfdaşları ilə birlikdə çalışır. Fransanın "TotalEnergies" şirkəti ilə 250 MVt gücündə, "Nobel Energy" şirkəti ilə isə 400 MVt gücündə günəş elektrik stansiyalarının inşası və istehsal ediləcək elektrik enerjisinin Türkiyəyə ixracı üzrə əməkdaşlıq edilir. 2020-ci ildən Böyük Britaniyanın BP, ABŞ-ın "Nobel Energy", Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power", Çex Respublikasının "A-Z Czech Engineering", Avstraliyanın "Fortescue Future Industries", Çinin "China Gezhouba Group Overseas Investment", "Total Energies" və Türkiyənin "Baltech" şirkətləri ilə bərpaolunan enerji layihələri üzrə ortaq çalışmalar davam edir.

Azərbaycanda Avropaya ixrac məqsədilə "yaşıl hidrogen" istehsalının reallaşdırılmasını şərtləndirən resurs və lazımi infrastruktur mövcuddur. Avropanın "yaşıl hidrogen" üzrə hədəflərinə çatmaq üçün məhdud daxili potensialı vardır. Belə ki, Avropa idxala ciddi ehtiyac duyur. Bu isə respublikamız üçün əlverişlidir. 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə güclər yaradılması nəzərdə tutulur. Həmçinin 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisinin istehsal olunacağı və həmin göstəricilərin 80 faizinin ixraca yönəldiləcəyi gözlənilir. Həmşinin qlobal enerji şirkətlərindən biri Azərbaycanda 10 qiqavat yaşıl enerjinin istehsalına yatırımlar etməyi planlaşdırır.

Gürcüstan Azərbaycanın yaşıl enerji siyasətində ona dəstək verən ölkələrdən biridir. İki dövlət arasında münasibətlər müxtəlif sahələr üzrə uğurla inkişaf etdirilir. İki öklə arasında bir çox yeni layihələr həyata keçiriləcəyi gözlənilir. Bu layihələrdən ən əhəmiyyətlisi "Yaşıl enerji dəhlizi" layihəsidir. Bərpaolunan enerjini Avropaya çatdırmaq üçün Qara dənizin dibi ilə elektrik kabeli aparılacaqdır.

Bakıda 23 tərəfdaş hökumət və 52 qurum və şirkətdən nümayəndələrin qatıldığı Cənub Qaz Dəhlizi (CQD) Məşvərət Şurasının 10-cu Nazirlər Toplantısı və Yaşıl Enerji Məşvərət Şurasının 2-ci Nazirlər Toplantısının 2024-cü il martın 1-də keçirilməsi vacib hadisə idi. Toplantıların eyni tarixdə keçirilməsi ənənəvi enerji layihələri ilə yanaşı, yaşıl enerji layihələrinə yönəldilən diqqətin göstəricisidir. Bu baxımdan Gürcüstanın da daxil olduğu Azərbaycanın yaşıl enerji siyasətinin tərkib hissəsi olan layihələr gələcək perspektivliyi baxımından olduqca əhəmiyyətlidir.